Eurasian Academy of Sciences Social Science Journal (International Refereed & Indexed)
Eurasian Academy of Sciences Social Sciences Journal
2020 Volume: 33 S: 1 - 4
Published Online November 2020 (http://socialsciences.eurasianacademy.org)
http://doi.org/10.17740/eas.soc.2020.V33-01

THE "GAITAGI" DANCE SPHERE IN AZERBAIJAN

Gülnaz ABDULLAZADE *

* Prof. Dr. Üzeyir Hacıbeyli adına Bakü Müzik Akademisi, gabdullazade@rambler.ru

Received Date:31.10.2020, Revised Date:12.11.2020, Accepted Date:20.11.2020

Copyright © 2020 Gülnaz ABDULLAZADE. This is an open access article distributed under the Eurasian Academy of Sciences License, which permits unrestricted use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

ABSTRACT

The first step in study of Azerbaijani folk music and folklore was made in the 19th century by our great composer Uzeyir Hajibeyli. This path started by great composer Uzeyir Bay was successfully passed by his followers in future. It is gratifying that this tradition, founded by Uzeyir. Hajibeyli, i.e. collection of folklore samples of Azerbaijan and study of folk music heritage, continues to this day.The Gaitagi dance can be counted among the above. Gaitagi is an ancient dance, very popular in Azerbaijan at that time, but forgotten over the years. One of the main reasons is that this type of dance was not collected or researched in due time. As a result of the research, interesting information was received about the regions of Azerbaijan where this dance was performed in the historical period. According to historical facts obtained by ancient musicians and masters, it was confirmed that the names of Kaitagi dances, both their music and their melodic language, belong to the Azerbaijani people. It should be noted that other peoples of the Caucasus have similar dances in folk music. However, the language of the music of each game confirms its national character and ethnic affiliation.As a result of the study it became clear that the majority of Gaytaga dances come from the northern region of Azerbaijan (Khizi, Shabran, Guba, Gusar) and the north-western region (Sheki, Zagatala, Gakh). But besides these dances there are also similar species created in Garabagh (Shusha, Agdam), Shirvan (Agsu, Shamakhi).

Keywords: Azerbaijan, Dance, Rehearsal, Areal, Folklore

AZERBAYCAN'DA "GAYTAGİ" DANSININ AREALI*

ÖZET

Azerbaycan halk müziği ve folklorunun araştırılmasındaki ilk adım XIX yüzyılda büyük besteci Üzeyir Hacıbayli tarafından atıldı. Üzeyir beyin başlattığı bu yolu ileride bir çok müzisyenler tarafından devam ettirilmektedir. Ü.Hacıbeyli tarafından kurulan bu geleneğin, yani Azerbaycan'ın folklor örneklerinin derlemesi ve halk müziği mirası çalışmalarının bugünde sürdürülmesi memnuniyet vericidir. Bu sıraya "Gaytağı" dansını da ekleyebiliriz. "Gaytağı" dansı, bir zamanlar Azerbaycan'da çok popüler olan ancak yıllar içinde unutulmuş eski bir dans türüdür. Ana nedenlerden biri, bu tür dansların zamanında derlenmediği veya araştırılmadığıdır. Araştırma sonucunda Azerbaycan'ın hangi bölgelerinin bu danslara ve tarihi alana ait olduğu hakkında ilginç bilgiler elde edildi. Eski müzisyenler ve ustaların elde ettiği tarihsel gerçeklere göre, Gaytagı dansının, hem müziği, hem de melodik dili isimlerinin Azerbaycan halkına ait olduğu doğrulandı. Diğer Kafkas halklarının halk müziğinde benzer danslara sahip olduğuna dikkat edilmelidir. Ancak, her dans türün müzikal yapısı, dili ulusal karakterini ve etnik kökenini doğrultur.

*30-31 Ekim 2020 tarihinde düzenlenen 6. Uluslararası Müzik ve Dans Kongresinde sunulan bildirinin genişletilmiş halidir.

Araştırma sonucunda Gaytagı dansının çoğunluğunun Azerbaycan'ın kuzey bölgesinden (Khizi, Shabran, Guba, Gusar) ve kuzeybatı bölgesinde (Sheki, Zagatala, Gakh) yaygın olduğu araştırmalar sonucu ortaya çıkmıştır. Ancak bu dansların yanı sıra Karabağ (Şuşa, Ağdam), Şirvan'da (Ağsu, Şamahı) benzeri dans türleri var.

Anahtar Kelimeler: Azerbaycan, Dans, Gaitağı, Alan, Folklor

1.GİRİŞ

Azərbaycan xalqının çox zəngin musiqi folkloru vardır. Qədim tarixə malik olan xalq rəqslərimiz də onun tərkib hissəsinə daxil olan əsas janrlardan biridir. Hər bir azərbaycanlı musiqiçi, bəstəkar, musiqişünas xalq musiqisinin janrlarını öyrənməli, dərindən mənimsəməlidir. Çünki, bu el havalarında xalqımızın əsl mənada surəti, əksi musiqi dili ilə təsvir olunur.

Azərbaycan xalq musiqisinin, folklorunun öyrənilməsində ilk addım XIX əsrdə, dahi bəstəkarımız Üzeyir Hacıbəyli tərəfindən atılmışdır. O, hələ Qori seminariyasında (1899-1904) oxuduğu illərdə folklor musiqi nümunələrini öyrənməklə, toplamaqla və notlaşdırmaqla məşğul olmuşdur. Ü.Hacıbəyli qeyd edirdi ki, *"Azərbaycan professional musiqisi və musiqi mədəniyyəti xalq musiqisinin zəngin təməli üzərində qurulmalıdır. Yalnız belə bir şəraitdə yeni əhəmiyyətli incəsənət əsərləri yaratmaq olar". (Safarova. 1973)*

Bu səbəbdəndir ki, bəstəkarın bütün əsərləri hansı janrda yazıldığından asılı olmayaraq xalqın qəlbinə yol tapmışdır. Çünki bu əsərlərdə ümumi mövzunun, eləcə də təsvir olunan obrazların xarakterinin açılması üçün xalq musiqi janrlarından düzgün istifadə edilmişdir.

Dahi Üzeyir bəyin başladığı bu yol gələcəkdə onun davamçıları tərəfindən çox böyük müvəffəqiyyətlə davam etdirilmişdir. Bu gün Azərbaycan musiqi mədəniyyətinin yüksək zirvədə qərarlaşmasında adları şərəflə çəkilən Müslüm Maqomayevin, Qara Qarayevin, Cövdət Hacıyevin, Fikrət Əmirovun, Asəf Zeynallının, Əfrasiyab Bədəlbəylinin, Səid Rüstəmovun, Zakir Bağırovun, Soltan Hacıbəyovun, Tofiq Quliyevin, Bülbülün, Məmmədsaleh İsmayılovun, Bayram Hüseynlinin və digər bəstəkar, musiqişünas-alimlərimizin çox böyük xidmətləri olmuşdur. Sevindirici haldır ki, Ü.Hacıbəyli tərəfindən təməli qoyulmuş bu ənənə, yəni Azərbaycan folklor nümunələrinin toplanması, xalq musiqi irsinin öyrənilməsi bu gün də davam etdirilməkdədir.

Aparılan araşdırmada istinad olunan məcmuə Rauf Bəhmənlinin uzun illər apardığı tədqiqat işinin səmərəli nəticəsidir. O, 1983-cü ildən bu günə kimi Azərbaycanın müxtəlif bölgələrindən, ucqar rayon və kəndlərdən 400-dən çox xalq rəqs musiqisini toplamış, araşdırmış və notlaşdırmışdır. Qocaman, ustad sənətçilərin ifasından yazılmış bu qədim rəqslərin yaranma tarixi haqqında, onların ritmik xüsusiyyətləri, oyun qaydaları da geniş şəkildə təhlil olunmuşdur. Əldə olunmuş bu zəngin musiqi nümunələri içərisində elə rəqslər vardır ki, onlar haqqında bu günə kimi çox az məlumat verilmişdir. Bunun da

əsas səbəbi həmin rəqs havalarının vaxtında toplanmaması və tədqiq olunmamasıdır. Çox qədim tarixə malik olan Qaytağı rəqsləri məhz, belə oyun havalarındandır.

Bu rəqslərin çoxu vaxtilə Azərbaycanda çox məşhur havalardan sayılmış, illər ötdükcə az ifa edildiyi üçün unudulmuş, yaddaşlardan silinmək təhlükəsində olmuşdur.

Məcmuəydə 30 qaytağı rəqsinin not yazısı işıqlandırılmışdır. Bununla yanaşı Qaytağı rəqsinin yaranma tarixi, onun növləri, ifa məziyyətləri, eləcə də, onların ritmik xüsusiyyətləri geniş təhlil olunmuşdur.

Məcmuədəki Qaytağı rəqsləri vaxtilə Azərbaycanda çox məşhur olan, lakin illər ötdükcə unudulmağa məruz qalan qədim oyun havalarıdır. Bunun əsas səbəblərindən biri isə vaxtında bu rəqs növünün toplanmaması və araşdırılmamasıdır. Tədqiqat nəticəsində bu rəqslərin Azərbaycanın hansı bölgələrinə aid olunduğu, hansı tarixi ərazidə yarandığı haqqında maraqlı məlumatlar aşkar olunmuşdur. Qocaman musiqiçilərin ifasından, ustad sənətkarların danışdıqlarından əldə olunan tarixi faktlara əsasən toplanmış Qaytağı rəqslərinin istər adlarının, istərsə də, onların musiqisinin, melodik dilinin Azərbaycan xalqına məxsus olduğu öz təsdiqini tapmışdır. Onu da qeyd etməliyik ki, digər Qafqaz xalqlarının xalq musiqisində də eyni ritmlərlə ifa olunan oxşar rəqs havaları mövcuddur. Lakin hər bir oyun havasının musiqisi onun hansı xalqa məxsus olduğunu təsdiqləyir.

Məcmuədəki oyun havalarının əksəriyyəti Azərbaycanın şimal bölgəsindən (Xızı, Şabran, Quba, Qusar), şimal-qərb bölgəsindən (Şəki, Zaqatala, Qax) toplanmışdır. Lakin bu rəqslərlə yanaşı, Qarabağda (Şuşa, Ağdam), Şirvanda (Ağsu, Şamaxı) yaranmış oyun havaları da kitabda öz əksini tapmışdır.

Azərbaycana Aid Olduğunu Təsdiqləyən Rəqslər

"Dübrar" rəqsi Xızı rayonunun ərazisində yerləşən Dübrar dağının şərəfinə adlandırılmışdır. "Çıraq qala" rəqsi öz ismini Azərbaycanın indiki Şabran rayonunun ərazisindəki V-VI əsrlərə aid qədim müdafiə qalasının adından götürmüşdür. "Pərzivan", "Pəri qalası" rəqslərinin adı Zaqatalada, "Daşbulağı", "Köndələn", "Çapağan" oyun havalarının adı Şəkidə, "Xucbala", "Alpanı" rəqslərinin adı Qubada, "Qıpçaq dərəsi"nin adı isə Qax rayonundakı kənd adlarından götürülmüşdür.

Azərbaycanda Qaytağı adlanan bu rəqs növü digər Qafqaz xalqlarında müxtəlif adlarla tanınmaqdadır. Bu rəqslər oxşar ritmik xüsusiyyətə malik olsalar da, onların musiqi məzmunu, melodik dili hansı xalqa məxsus olduğunu müəyyənləşdirir. Bu mənada məcmuədə toplanmış Qaytağı rəqsləri Azərbaycan folklor musiqisinə aid olan oyun havalarıdır.

Azərbaycan xalq rəqslərinin toplanması və tədqiqatı bu gün də davam etdirilməkdədir. Qədim tarixə malik olan bu zəngin mənəvi sərvətimizi araşdırmaq, öyrənmək və bütün dünya xalqlarına göstərmək hər bir folklorşünasın şərəfli vəzifəsidir.

REFERENCES

- Azərbaycan el musiqisi. (Not yazısı Müslüm Maqomayevin). Bakı, Azərnəşr, 1927.
- Bəhmənli R. Qaytağılar. Bakı, Mütərcim. 2020
- Həsənov K.N. Qədim Azərbaycan xalq rəqsləri. Bakı, İşıq, 1983, 59 s.
- Həsənov K.N. Qədim Azərbaycan qədim folklor rəqsləri. Bakı, İşıq, 1988, 129 s.
- Hüseynli B.X. Azərbaycan xalq rəqs melodiyaları. I dəftər. Bakı, Azərnəşr, 1965, 42 s.
- İsazadə Ə.İ., Məmmədov N.H. Azərbaycan xalq mahnıları və oyun havaları. Bakı, Elm, 1984, 74 s.
- İsmayılov M.C. Azərbaycan xalq musiqisinin janrları. B., İşıq, 1984, 100 s.
- Сафарова З.Ю. Музыкально-эстетические взгляды Узеира Гаджибекова. М., Сов. Комп.,1973.